*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 398-402* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.398*

# XX əsrin I yarısında mədəniyyət tarixində kulturoloji metodun rolu

**Pərvanə İbrahimova**
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: parvanaibrahimova81@gmail.com

**Annotasiya.** XX əsrin I yarısında Azərbaycan mədəniyyət tarixində kulturoloji metodun rolunun əhəmiyyəti artmağa başlamışdı. Bu dövrdə, mədəniyyət tarixi elmi Azərbaycan ictimaiyyətində daha populyar olmağa və kulturoloji metod, mədəniyyət tarixi araşdırmalarında daha sıx istifadə edilməyə başlamışdı. Kulturoloji metod, Azərbaycan mədəniyyətinin müxtəlif aspektlərinin araşdırılması və qiymətləndirilməsi üçün istifadə olunurdu. Bu metod, mədəniyyətin inkişafının dövr, məkan və ictimai müvəffəqiyyətlərinə diqqət yetirir və bu sahədə araşdırmalar aparır.
Bu dövrdə, Azərbaycan mədəniyyət tarixi ilə bağlı mühüm çalışmalar aparılır və bu sahədə kulturoloji metod daha dəqiq istifadə olunur. Mədəniyyətin tarixi, sosial dəyərlər, mədəniyyətin digər mədəniyyətlərlə olan əlaqələri və ictimai tərəfləri kulturoloji metod vasitəsi ilə araşdırılır və qiymətləndirilir. Məqalədə əsasən Azərbaycanda mədəniyyət, mədəniyyətşünaslıq, kulturoloji metodun yaranması, inkişaf etməsi, kulturoloji irsimizin tədqiqi, bioloji sahədə dünya təcrübəsinin mənimsənilməsindən, milli kulturoloji fikir tarixindən bəhs olunub.
**Açar sözlər:** mədəniyyət, kulturoloji metod, mədəni fikir, mədəniyyətşünaslıq

**Məqalə tarixçəsi:** göndərilib – 03.05.2023; qəbul edilib – 30.05.2023

# The role of the cultural method in the history of culture in the first half of the 20th century

**Parvana Ibrahimova**
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: parvanaibrahimova81@gmail.com

**Abstract.** In the first half of the 20th century, the importance of the role of the cultural method in the cultural history of Azerbaijan began to increase. During this period, the science of cultural history began to become more popular in the Azerbaijani society, and the cultural method began to be used more intensively in cultural history studies. The cultural method was used to investigate and evaluate various aspects of Azerbaijani culture. This method focuses on the period, place and social achievements of the development of culture and conducts research in this field.
During this period, important studies are being carried out on the cultural history of Azerbaijan, and the use of the cultural method in this field is becoming more definite and accurate. The historical, artistic and social values of the culture, the relations of the culture with other cultures and the social aspects are investigated and evaluated by means of the cultural method. The article mainly talks about culture, cultural studies, the creation and development of the cultural method in Azerbaijan, the study of our cultural heritage, the assimilation of world experience in the biological field, and the history of national cultural thought.
**Keywords:** culture, culturological method, cultural thought, cultural studies

**Article history:** received – 03.05.2023; accepted − 30.05.2023

## Giriş / *Introduction*

Mədəniyyətşünaslıq elminin müasir inkişafını şərtləndirən "mədəniyyət" sözünün ilkin etimoloji mənaları, görkəmli şəxsiyyətlərimizin bu anlayışa verdiyi təriflər, kulturoloji təlim və nəzəriyyələr olmuşdur. İnsanın və bəşəriyyətin qurucu həyati fəaliyyəti haqqında elm olan kulturologiya dünya elm tarixinə, nisbətən gec daxil olmuşdur. Mədəniyyət anlamına bəşəriyyətin inkişafında onun roluna düzgün yanaşmaq, həmçinin mədəniyyət tarixinin araşdırılması və dərki üçün Azərbaycanın bir çox alim, mütəfəkkir və maarifçilərinin əsərləri mühüm metodoloji əhəmiyyət kəsb edir. Kulturoloji irsimizin tədqiqi, bioloji sahədə dünya təcrübəsinin mənimsənilməsi, elmi metodların milli kulturoloji fikir tarixinin inkişaf mərhələlərinin öyrənilməsi, tətbiqi və Azərbaycan mədəniyyəti problemlərinə dair nəzəri konseptual fikirlərin müqayisəli təhlili ölkəmizdə kulturologiya elminin inkişafını şərtləndirir.

Kulturoloq Fuad Məmmədovun dediyinə görə, kulturologiya insanın, ailənin, cəmiyyətin, dövlətin və bəşəriyyətin yaradıcı həyatı və fəaliyyəti haqqında elmdir. Bu elm insanın həyat fəaliyyətinin mahiyyət, xüsusiyyət, tarixi nailiyyəti, inkişaf qanunları, texnologiyaları və dəyişdirici imkanlarını aşkarlayır. O, idrakın elə bir çoxpilləli piramidasıdır ki, onun pillələrini qalxarkən, insan tədricən xüsusi elmi biliklərə yiyələnir, bu gününü pozitiv idarə etmək, dəyişmək, daha yaxşı gələcək qurmaq qabiliyyətlərini dəfələrlə artırıb, müdrikliyə yaxınlaşır [2, s.301].

XX əsrin I yarsında mədəniyyətimizin inkişafında kulturoloji metodun rolunun öyrənilməsi nədən ibarətdir.

- XX əsrədək olan Azərbaycan mədəni fikrinin inkişafının araşdırılması.
- İnkişaf mərhələlərini müəyyənləşdirmək.
- Kulturoloji tədqiqat məsələlərini öyrənmək.
- Azərbaycan maarifçilərinin formalaşdırdıqları kulturoloji görüşlərin araşdırılması.
-Yaradıcılıqlarının ana xəttini humanizm ideyaları təşkil edən dahi mütəfəkkirlərimiz Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin və başqalarının kulturoloji elmin nəzəri əsaslarının bünövrəsinin qoyulmasında özünəməxsus rolunun tədqiqi.

## Əsas hissə / *Main Part*

Kulturologiyanın tədqiqat obyekti mədəniyyətdir, ancaq bir elm sahəsi kimi, onun başqa istiqamətləri, fərqli cəhətləri də vardır. Bunlar - mədəniyyətlərin meydana gəlməsi, yaranması, sonrakı inkişaf prosesi və dövrün, zamanın müxtəlif təsirləri nəticəsində məhv olması kimi məsələlərdir. Şübhəsiz, bütün bunlar cəmiyyətdəki ictimai-iqtisadi-siyasi şəraitlə bağlı olur [1, s.14].

Bütöv ictimai hadisə hesab olunan mədəniyyət haqqında elmin böyük tarixi vardır. Alim və yazıçılar, filosof və din xadimləri öz əsərlərində mədəniyyətin mahiyyətini və onun inkişaf tendensiyalarını anlamağa, insanın mənəvi inkişafını təmin edən əsas və ikinci dərəcəli faktorları aşkarlamağa çalışmışlar. Kulturoloji fikir kulturologiyanın metodoloji və nəzəri əsasını təşkil edir. Kulturoloji nəzəriyyələr heç də hər zaman həqiqətə uyğun olmayıb və əsaslandırılmayıb. Onlarda çox vaxt müəlliflərin subyektiv düşüncələri öz əksini tapıb. Lakin bu, mədəniyyətin reallığıdır. O, hər zaman həyatı subyektiv münasibətlər vasitəsilə dərk etməyə yönəlib. Tarixən yaranmış nəzəri konsepsiyalarda əks olunan ideyalar öz uzaqgörənliyinə görə müasir nəsilləri heyran edir. Kulturologiyanın tarixi böyük adlar ilə zəngindir, onların əsərlərinin öyrənilməsi isə, öz növbəsində tarixi-kulturoloji tədqiqatlar üçün güclü intellektual və emosional impuls yaradır. Kulturoloji irsimizin tədqiqi, bu

sahədə dünya təcrübəsinin mənimsənilməsi, elmi metodların milli kulturoloji fikir tarixinin inkişaf mərhələlərinin öyrənilməsinə tətbiqi və Azərbaycan mədəniyyəti problemlərinə dair nəzəri konseptual fikirlərin müqayisəli təhlili ölkəmizdə kulturologiya elminin inkişafını şərtləndirir. Azərbaycanda mədəni fikrin inkişaf tarixi, Azərbaycan mədəniyyətində kulturoloji metodun mərhələləri üzrə refleksiya aktları, mədəniyyət fenomenini dərketmə prosesinin təşəkkülü və inkişaf mexanizmləri tədqiqatın başlıca obyektidir. Mədəniyyətşünaslıq elminin müasir inkişafını şərtləndirən "mədəniyyət" sözünün ilkin etimoloji mənaları, görkəmli şəxsiyyətlərimizin bu anlayışa verdiyi təriflər, kulturoloji təlim və nəzəriyyələr tədqiqatın əsas obyekti və predmetinə yönəlmişdir. İnsanın və bəşəriyyətin qurucu həyati fəaliyyəti haqqında elm olan kulturologiya dünya elm tarixinə nisbətən gec daxil olmuşdur. Mədəniyyət anlamına bəşəriyyətin inkişafında onun roluna düzgün yanaşmaq, həmçinin mədəniyyət tarixinin araşdırılması və dərki üçün Azərbaycanın bir çox alim, mütəfəkkir və maarifçilərinin əsərləri mühüm metodoloji əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında kulturologiya sahəsində ilk araşdırmalar XX əsrin sonlarından aparılmağa başlamışdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında, "Simurq" Azərbaycan Mədəniyyəti Assosiasiyasında və respublikanın bir sıra ali məktəblərində geniş tədqiqatlar aparılır. Kulturologiya fənn kimi bu və ya digər formatda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında, Rəssamlıq Akademiyasında, Slavyan Universitetində, Bakı Musiqi Akademiyasında və s. ali məktəblərdə tədris olunur. 1993-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kulturologiya fakültəsi açılmışdır. Azərbaycan Mədəniyyəti Assosiyasiyasının AMEA ilə birlikdə nəşr etdirdiyi "Simurq" jurnalı respublikada kulturoloji tədqiqatların inkişafında mühüm rol oynayır. Son illərdə aparılmış tədqiqatların nəticəsi kimi "Azərbaycanlılar: etnokulturoloji inkişafın siyasi-ideoloji üfüqləri", "Tarixi mədəniyyətlərin modelləşdirilməsi əsasları" və b. kitablar nəşr olunmuşdur. Sırf kulturoloji tədqiqatlarla yanaşı, Azərbaycan alimlərinin fəlsəfə, sənətşünaslıq, pedaqogika, filologiya, din tarixi və s. sahələrdəki araşdırmaları da Azərbaycanda kulturologiyanın inkişafına rəvac verən qiymətli mənbələrdir. Qeyri-hökumət təşkilatı olan "Simurq" Azərbaycan Mədəniyyəti Assosiyasiyası kulturologiyaya dair 100-dən artıq elmi və elmi-maarif kitabları nəşr etdirmiş, Azərbaycanın və xarici ölkələrin alimləri, mütəxəssisləri və diplomatlarının iştirakı ilə 200-dən çox kulturoloji seminar, treninq, dəyirmi masa və konfrans keçirmişdir. 2006-cı ildə "Kulturologiya, effektiv həyati fəaliyyətə aparan yol kimi" monoqrafiyası çapdan çıxmışdır. "Simurq" assosiasiyasının apardığı kulturoloji tədqiqatlar Azərbaycanda mədəniyyət və s. sahələrdə proqramların işlənib hazırlanmasında istifadə olunur.

Qeyd etmək lazımdır ki, mədəniyyətin tərəqqisi obyektiv bir proses, ədəbi, canlı və dinamik bir hadisədir. Eyni zamanda mədəniyyətin tərəqqisi ictimai həyatın bütün sahələrinin, o cümlədən də milli həyatın inkişafı və təkmilləşməsi ilə sıx əlaqədə baş verir. Çünki cəmiyyətin və şəxsiyyətin həm inkişaf səviyyəsi, həm də normal fəaliyyəti orada mədəniyyətin inkişaf səviyyəsi ilə sıx bağlıdır. Mədəniyyətin yüksək nümunələrini əks etdirmiş, onu şəxsiyyətin təkmilləşməsinə istiqamətləndirmiş cəmiyyət sivilizasiyasının yüksək zirvələrini fəth etməklə yanaşı, vətənpərvərlik hisslərinin hərtərəfli və məzmunlu təzahürünə, insanların hiss və duyğularının məqsədyönlü tənzimlənməsinə geniş və əlverişli şərait yaradar.

Yeni təfəkkür özü ilə millət və xalqların roluna əvvəlkindən əsaslı surətdə fərqlənən yeni baxış gətirir, onların ümumbəşəri dünya mədəniyyətinə və insanlar arasında mənəvi avtoritetə gətirdiyi zənginliyə yenidən nəzər salır. İndi elə bir vaxt gəlib çatıb ki, gərək birbaşa və qəti cavab verək: millətin ləyaqətinə hər şeydən əvvəl nə dəlalət edir. Millətin mənəvi qüruru üçün əsas əhəmiyyət kəsb edən incəsənətdir və mədəniyyətin humanitar tərəfidir, millətin özünün onlara münasibətidir, adamların öz tarixinə, öz keçmişinə münasibətidir. Ona görə də mədəniyyət və tarix abidələrinin vəziyyəti, kitabxana və muzeylərin vəziyyəti, davranış mədəniyyəti, mərifət bütün bunlar başqa xalqların da millətə

münasibətini təyin edir. Mədəniyyətin ilk tarixi tipi mifalogiyadır. Mif dünyanın yaranması, təbiət hadisələri, ilahi varlıq, bütövlükdə mövcudat haqqında fantastik təsəvvürlərin ibtidai səviyyəsindən ibarət dünyagörüşü formasıdır. Mədəniyyət anlayışının latın dilindən tərcüməsi culture – becərmək, bəsləmək, yaxşılaşdırmaq deməkdir. Bu sözün ilkin mənası-torpagın becərilməsı, əkinçilik, torpağın işlənməsi idi. Tədricən insanların fəaliyyət dairəsi genişləndi və “mədəniyyət” sözü daha geniş bir məna daşımaga başladı: maarifçilik, savad, tərbiyə.

Mədəniyyət-insan fəaliyyətinin məhsuludur. Bu fikir mədəniyyətin mahiyyətini tam olaraq açır.

Mədəniyyət – əvvəlki nəsillərin yaradaraq gələcəyə ötürdüyü bizim həyatımızın əsaslarını müəyyən edən sosial təcrübə və mənəvi irsdir.

Mədəniyyət – təbii mühitə cəmiyyətin uyğunlaşması vasitəsidir.

Mədəniyyət – mədəni institutlar səviyyəsində kitabxana, klub, teatr, muzey, ali təhsil müəssisələri və s.kimi anlaşılır.

Mədəniyyət – insan və cəmiyyətin inkişafının müasir səviyyəsi, insanın yaratdığı və nəsildən-nəsilə ötürdüyü, maddi və mənəvi dəyərlərdir.

Maddi mədəniyyət – ilk əmək alətlərindən tutmuş bütün fiziki əməyin və fəaliyyətin nəticələrini özündə əks etdirən məhsullar, artefaktlar maddi mədəniyyəti təşkil edir.

Bütün mənəvi dəyərlər maddi obyektlər vasitələri ilə ifadə olunur. Məs: musiqi ifa alətində, rəsm tabloda, bilik kitabda təcəssüm tapır və s. Və ya əksinə, maddi mədəniyyət mənəvi tərəflərsiz qeyri-mümkündür.

Mənəvi mədəniyyət – bütöv bəşər mədəniyyətinin hissəsi olmaqla, bəşəriyyətin mənəvi təcrübəsinin, insanın şəxsiyyət kimi inkişafını təmin edən intellektual və mənəvi fəaliyyətinin və onun nəticələrinin məcmusudur.

Kütləvi mədəniyyət – böyük həcmdə istehsal olunan ümumdünya istehlak elementlərinin məcmusu kimi şərh edilir. Bu, gündəlik həyat mədəniyyətidir. Onun məzmununu müasir sənaye istehsalının – kino, televiziya, kitab, qəzet, jurnal, idman, turizm və s. məhsulları təşkil edir.

## Nəticə / *Conclusion*

XX əsrdə bir fənn kimi formalaşmış kulturologiya humanitar elmlər sisteminə daxil olub, mədəniyyəti bütöv sistem kimi onun çoxşəkilliyini, qarşılıqlı əlaqəsini, mədəni yaradıcılığın tiplərini, mədəniyyətin strukturu və funksiyalarını, sosial həyatda və insan məişətində mədəniyyətin təzahürlərini, inkişaf qanunauyğunluqlarını öyrənir.

## Ədəbiyyat / *References*


1. Həsənzadə, N. Kulturologiya. – Bakı, 2015.
2. Məmmədov, F. Kulturologiya və insan inkişafı. – Bakı, 2019.
3. Süleymanlı, M.A. Azərbaycan kulturoloji fikir tarixindən. – Bakı, 2011.

# Роль культурологического метода в истории культуры первой половины XX века

**Парвана Ибрагимова**
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: parvanaibrahimova81@gmail.com

**Резюме.** В первой половине 20 века значение роли культурологического метода в культурной истории Азербайджана стало возрастать. В этот период в азербайджанском обществе стала приобретать все большую популярность культурно-историческая наука, а культурологический метод стал более интенсивно использоваться в культурно-исторических исследованиях. Культурологический метод использовался для исследования и оценки различных аспектов азербайджанской культуры. Этот метод акцентирует внимание на периоде, месте и социальных достижениях развития культуры и проводит исследования в этой области.

В этот период проводятся важные исследования по истории культуры Азербайджана, и использование культурологического метода в этой области становится более определенным и точным. Исторические, художественные и социальные ценности культуры, отношения культуры с другими культурами и социальные аспекты исследуются и оцениваются с помощью культурологического метода. В статье в основном говорится о культуре, культурологии, создании и развитии культурологического метода в Азербайджане, изучении нашего культурного наследия, освоении мирового опыта в области биологии, истории национальной культурной мысли.

**Ключевые слова:** культура, культурологический метод, культурологическая мысль, культурология